

ƏTRABƏ GÜL
*Bakı Mühəndislik Universitetinin dosenti*

# 18 SENTYABR - ÜZEYİR HACIBƏYOV GÜNÜ

*Ulu öndər Heydər Əliyev "Üzeyir Hacıbəylinin yaradıcılığı Azərbaycan xalqının milli sərvətidir", demişdi*

Dünya şöhrətli bəstəkar, görkəmli musiqişünas, dramaturq Üzeyir bəy Hacıbəyli Azərbaycan mədəniyyətinə böyük simalar bəxş edən Qarabağda öz adı-sanı ilə məruf bir ailədə dünyaya göz açmışdı. **Üzeyir bəy Əbdülhüseyn oğlu 1885-ci il sentyabrın 18-də Şuşa qəzasının Ağcabədi kəndində** anadan olmuşdu. Əbdülhüseyn bəy həm Natəvanın mirzəsi, həm də Xan qızının xanlığın Aranında - Ağcabədi torpaqlarında darğası idi. Ana tərəfdən Əliverdibəyovlardın idi, anası Şirin xanımın atası Xan qızı Natəvanın süd qardaşı idi. Ailə maarif ziyası ilə nurlanmış bir ailə idi; bu üzdən Üzeyir bəy ilk təhsilini Şuşada rus-türk məktəbində almış, 1899-1904-cü illərdə Zaqafqaziya Qori Müəllimlər seminariyasında oxumuşdu. Burada o, mütərəqqi Dünya mədəniyyəti ilə yaxından tanış ola bilmuşdu; məhz seminariyada onun Avropa musiqi klassikləri ilə tanışlığı başlamışdı. Seminariyanı bitirib Cəbrayıl qəzasının Ağ oğlan (indiki Hadrut) qəsəbə məktəbinə müəllim təyin olmuşdu. Lakin tezliklə Bakıya köçmüş, əvvəl Bibiheybətdə, sonra isə Bakının mərkəzindəki şanı-şöhrəti şəhərlə bir olan "Səadət" məktəbində dərs demişdi. Ölkəni, milləti kökündən saran cəhalətin yalnız maariflənmək yolu ilə dəf olunub gedəcəyinə böyük inam bəsləyirdi.

Yaradıcılığa publisistik əsərlərlə başlayan Üzeyir Hacıbəyli dövrün nüfuzlu mətbu orqanları olan "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni İqbal" qəzetlərində və "Molla Nəsrəddin" jurnalında zamanın kəskin və zəruri problemləri, eləcə də milli oyanış dövrünün tələbləri barədə məqalə və felyetonlar çap etdirirdi.

Vətəni Şuşanın zəngin musiqi ənənələri onun tərbiyəsində mühüm rol oynamışdı; o ədəbi-bədii fəaliyyəti ilə bir sırada musiqi əsərləri də yazırdı. Get-gedə gözədəyən uğurlu işlər meydana çıxarır; 1907-ci ildə "Leyli və Məcnun" üzərində işləməyə başlayır və 1908-ci il yanvarın 12-də Bakıda Hacı Zeynalabdin teatrında (bu günkü Musiqili Komediya teatrı) "Leyli və Məcnun" operasının ilk tamaşası olur. Opera təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində ilk opera nümunəsi idi. Buna imza atmaq da da onun qismətinə düşmüş oldu.

"Leyli və Məcnun" sənətkarın öz taleyində də dönüş yaratmaqla onun fəaliyyətində mühüm irəliləyişlərə səbəb oldu. Bununla da Üzeyir Hacıbəylinin elə bu zamandan etibarən çoşqun musiqi həyatı başlayır. Bəstəkar 1909-1915-ci illər arasında birbirinin ardınca "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşid banu", "Əsli və Kərəm", "Harun və Leyla" operalarını yazır. O bu əsərləri uğurla xalq dastanları və rəvayətləri, habelə Füzulinin "Leyli və Məcnun", Firdövsinin "Şahna-

mə"əsərlərinin motivləri əsasında qələmə almışdı. Şəxsi həyatında da yenilik baş verir: 1909-cu ilin axırlarında öz ideya məslək dostları Əli və Hənəfi Terequlovların bacısı Məleykə xanım ilə evlənir.

Üzeyir bəyin yaradıcılığı zəngin, çoxtərəfli keyfiyyəti kəsb etməklə püxtələşir; Azərbaycan milli komediya janrının da banisi olmaq onun fəaliyyət meyarlarından birinə çevrilir. "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" kimi musiqili komediyalar bu sahədə onun ərsəyə gətirdiyi mükəmməl nümunələrdir. Sonuncu əsərin şöhrəti dərhal ölkənin hüdudlarını aşmış, ingilis, alman, ispan, ərəb, çin, fars, polyak, ukrayna, belarus və s. dillərə tərcümə olunmaqla saysız səhnələrdə tamaşaya qoyulmuşdur.



*Üzeyir bəy və Müslüm Maqomayev Qori seminariyasında oxuyarkən*

Üzeyir bəy musiqi təhsili almağın zəruriliyini bilirdi; 1912-1914-cü illərdə əvvəl Moskvada, sonra Peterburq konservatoriyasında oxuması da bu zərurətdən doğmuşdu. Həyat burulğanları bəzən onu kamına çəkmiş, dəhşətli təbəddülatlar yaşatmışdı ona.



*Üzeyir bəy ziyalılarla birlikdə*

Şaumyan hakimiyyəti zamani Bakıda baş verən qanlı qırğınlardan canını götürüb Xəzərin o biri sahilinə pənah aparmış, Ənzəli və Rəştdə yaşayıb fəaliyyət göstərmişdi. Qafqaz İslam Ordusu Bakını azad etdikdən sonra evə dönmüş, Azərbaycanın Dövlət himnini və "Milli Marş"ı yazmışdı. Həyati və xidməti fəaliyyətinnin mühüm qolunu bəstəkarın təşkilatçılıq fəaliyyəti tutur. 1921-ci ildə Bakıda Azərbaycanlı tələbələr üçün ilk musiqi məktəbi olan Azərbaycan Türk Musiqi məktəbinin açılmasının təşkilatçısı olur. 1926-cı ildən Azərbaycan Dövlət Konservatoriyasında fəaliyyətə başlayan Üzeyir bəy milli musiqiçilərin yetişməsində müstəsna rol oynamış, 1927-ci ildən dostu və məsləkdaşı Müslüm Maqomayevlə birgə "Azərbaycan Türk el nəğmələri" məcmuəsini nəşr etmişdi. 1937-ci il aprelin 30-da Azərbaycan qəhrəmanlıq dastanları əsasında yazdığı "Koroğlu" operasının ilk tamaşası olur. İstər ölkənin ictimai həyatında, istərsə də şəxsi taleyində bu böyük hadisə idi. Deyirlər, dərhal SSRİ-də görünməmiş vüsətlə yayılan məhz bu əsərə görə bəstəkar 37-nin irticasından canını qurtarıb.

Az sonra yaxın dostu, həmkarı, həmfikiri Müslüm Maqomayev ölür. Bu ona bərk təsir edir, amma özü də nasaz idi; şəkər xəstəliyindən əziyyət çəkirdi. Müslümlə yeniyetməlik illərindən başlayan bir dürüst dostluğu vardı.

Onların bir qardaş qədər yaxınlığı da hörmət, sayğı oyadırdı özlərinə. Bu xüsusda məzəli lətifə var. Necə olursa bu iki əziz dostun arası sərinləyir, amma onların ortaq dostları vardı, onlar bunun sərt küləyə keçməsinə razı olmazlar. Yığışıb onları barışdırırlar. Müslüm çəkinə-çəkinə: "Üzeyir bəy, barışsaq da, barışmasaq da mən heç vaxt sənə həsəd çəkmədim, ardınca danışıb düşmən dəyirmanına su tökmədim", deyir. Hamı dönüb Üzeyir bəyə baxır, fikirləşirlər ki, bu an durub bu köhnə dostunu qucaqlayacaq. Yoldaşlari bunu düşünərkən birdən Üzeyir bəyin sərt səsi uca-



*Üzeyir bəy həyat yoldaşı Məleykə xanımla*

lır: "Yalan deyirsən? Necə yəni paxıllığımı çəkməmisən? Bax, mən 1885-də doğuldum, durub sən də həmin il gəldin dünyaya. Bu azmış kimi mən sentyabrın 18-də, sən də nə irəli, nə geri, sentyabrın 18-də anadan oldun. Qafqaz Müəllimlər seminariyasına oxumağa getdim, sən də yığışıb dalımca gəldin. Oxuyub Vətənə döndüm, sən də öz yerinə deyil, ardımca Azərbaycana gəldin. Mən 1909-da "Leyli və Məcnun" operasını yazdım, sən də durub "Şah İsmayıl"ı yazdın. Mən gedib Hənəfi Terequlovun bacısı ilə evləndim, sən də qaça-qaça gedib onun o biri bacısını aldın. Daha paxıllıq necə olur?" Üzeyir bəy ağzını açanda dava düşəcəyini zənn edən dostlar söhbət irəlilədikcə artıq şaqqanaq çəkib gülməkdə idilər.

Üzeyir Hacıbəyli gözəl mahnı bəstəçisi olmuşdur: 1941-45-ci illər arası Nizaminin sözlərinə məşhur "Sənsiz" və "Sevgili canan" romanslarını yazır. Bundan başqa "Çırpınırdı Qara dəniz", "Qaragöz", "Şəfqət bacısı", "Vətən Ordusu" kimi məşhur mahnıların müəllifidir. Övladı yox idi; əsərlərini övladı sanırdı, onların ifasında təhrifə yol veriləndə ürəkağrısı ilə "mən icazə vermərəm uşaqlarımı şikəst edəsən" deməyi sanki vərdişə çevirmişdi. Bir də hamının bildiyi bir həqiqəti burada bir də yada salmaq istəyirəm: qanlı 37-nin fəlakətindən neçə-neçə ailəni xilas etmişdi. Ölümünü gözaltına almışdı, amma qorxub geri çəkilməmişdi. Təbiətində mərhəmət, məzluma acıma, haqqı əlindən alınanın yanında olmaq kimi gözəl insani özəlliklərə sahib idi. Bəstəkarın bu yüksək keyfiyyətləri barədə xalq arasında rəvayətlər hələ də dolaşmaqdadır: Məşhur opera müğənnisi Gülxar Həsənovanın uca qədd-qamətinin, əsl Azərbaycan qızının yaraşığı olan qara qaş-gözünün, yüksək, həm də yanıqlı səsinin həsədini çəkənlər vardı. Həmin adamlar paxıllıqdan Gülxara gözəl, yaraşıqlı paltar vermirdilər. Bir gün onun oyununu seyr edən Üzeyir bəy müğənninin yoxsul geyimindən bərk tutulur, lakin üzə vurmur. Həmin gecə Gülxar xanım "Şah İsmayıl" operasında Ərəb Zəngi rolunda çıxış edirdi. Bəstəkar qarderobçunu çağırıb ona ehmal-ehmal: "heç padişahın xanımı kasıb geyinə bilərmi? Tez ona yaxşı libas, zinət əşyaları verin, axır ki, şahbanu necə geyinirsə Gülxarı da elə geyindirin", deyib tapşırıq verir.

PS: Yazıq Gülxarın kökü bəy-xan nəslindən idi onsuz da... Əsil familiyası Sultanov olsa da sovet repressiyası səbəbindən dəyişib Həsənov etmişdilər.



*Üzeyir bəy ailəsi ilə Şuşada. 1910*

Böyük bəstəkar 1948-ci il noyabrın 23-də Bakıda vəfat etmişdir. Xalq onun itkisini dərin hüznlə qarşılamışdır. Onu son mənzilə yola salmağa bütün Bakı axışıb gəlirdi. Deyirdilər ki, Həsən bəy Zərdabinin dəfnindən sonra Bakıda belə izdihamlı mərasim olmamışdı.

Azərbaycan Cümhuriyyətinin prezidenti mərhum Heydər Əliyev "Üzeyir Hacıbəylinin yaradıcılığı Azərbaycan xalqının milli sərvətidir", demişdi.